# "Səhhətimi öz həkimlərimizə etibar edirəm... Nə Rusiya, nə İran..."

**Son illər şəkərli şəkərli diabet xəstəliyinin daşıyıcılarının sayının artması bəşəriyyəti narahat edən məsələlərdəndir. Hazırda dünya üzrə hər 10 saniyədə 2 nəfərə şəkərli diabet diaqnozu qoyulur, 1 nəfər isə bu xəstəlikdən dünyasını dəyişir. Şəkərli diabetin yüksək artımı eyni zamanda onun yaratdığı tibbi, sosial, iqtisadi, psixoloji və digər problemləri də çox qabardır. Məhz bu baxımdan 2006-cı ildə Ümumdünya Səhiyyə Təşkilatı xüsusi bəyannamə qəbul edib və bu sənəddə şəkərli diabeti "ağır xroniki xəstəlik" kimi səciyyələndirib. Odur ki, bu xəstəliklə mübarizə hazırda dünya səhiyyəsinin ən aktual məsələlərindən biridir.**

### *İnsan ömrünün*

qısaldılmasına səbəb olan şəkərli diabet xəstəliyinə diqqəti cəlb etmək üçün Ümumdünya Səhiyyə Təşkilatı və Beynəlxalq Diabet Federasiyasının tövsiyyələrinə əsasən, 1991-ci ildən noyabrın 14-ü Ümumdünya Diabet Günü kimi qeyd olunur. MDB ölkələri arasında birinci olaraq Azərbaycan Respublikasında "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Qanun, 2006-2010-cu, 2011-2015-ci və 2016-2020-ci illəri əhatə edən "Şəkərli diabet üzrə Dövlət Proqramı" qəbul edilib. 2006-cı ildən başlayaraq bu proqramın icrası üçün dövlət büdcəsindən maliyyə vəsaiti ayrılır. Ötən illərlə nisbətən bu vəsaitin həcmi xeyli artırılıb. Dövlət proqramına uyğun olaraq 2019-cu ildə Muxtar respublika üzrə şəkər xəstələrinin müayinə və müalicəsinə 1.637.748 manat vəsait ayrılıb. Bundan 1.615.524 manatı şəkər xəstələrinin dərman və sarğı materialları ilə təchizatı üçün nəzərdə tutulub.

Hazırda muxtar respublikada əhaliyə endokrinoloji xidmət Naxçıvan Muxtar Respublika Xəstəxanasının Endokrinoloji xəstəliklər şöbəsi, rayon mədkəzi xəstəxanalarının və Mərkəzi Uşaq Xəstəxanasının poliklinika şöbələrində endokrinoloji kabinələr tərəfindən həyata keçirilir.

**Endokrinoloji xəstəliklər şöbəsi əsaslı təmirindən sonra Respublika Xəstəxananın 4-cü mərtəbəsində yerləşib. Şöbə laboratoriya və 5 həkim kabinəsi, diabet məktəbi otağı, 21 çarpayılıq 9 palata, mətbəxt, anbar və yardımçı otaqlardan ibarətdir. Şöbədə çalışan həkim-endokrinoloqlar Aysel Dünyamalıyeva, Mirkamal Seyidov, Gülşən Həsənquliyeva, Aysel İsmayılova, həkim-laborant İradə Eyvazova sertifikasiya imtahanından keçib, ixtisaslaşma kurslarında olublar.**

Hazırda Endokrinoloji xəstəliklər şöbəsi xəstələrin ən çox üz tutduğu ünvanlardan biridir. Burada endokrinoloji xəstələrin müayinələri və digər profilaktik tədbirlər həyata keçirilir. Xəstəxanada endokrinoloji xəstələrin diaqnozlarının dəqiqləşdirilməsi üçün lazım olan laboratoriya şöbəsi, USM, rentgen, KT, MRT və digər müayinə kabinələri fəaliyyət göstərir. Ehtiyac olduqda xəstələr cərrah, kardioloq, uroloq, oftolmaloq və digər ixtisas həkimləri tərəfindən konsultasiya olunurlar. Aşkar edilən ilkin xəstələr qeydiyyata alınır, müalicə-profilaktika tədbirləri müəyyənləşdirilir. Rayonlarda yaşayan endokrin xəstələrə qeydiyyata alınır, dispanser xəstələrdə ilkin müayinə tədbirləri aparılır.

**Xəstələr oftalmoloq, kardioloq, uroloq, cərrah, nervpatoloq, ehtiyac olduqda digər mütəxəssislər tərəfindən konsultasiya olunurlar. Xəstələrin çoxunda vaxtaşırı qanın kliniki və biokimyəvi müayinələri aparılır. Şəkərli diabet xəstələrində müalicə tədbirləri qanda qlükozalaşmış hemoqlobulin müayinəsinin nəticəsinə görə təyin edilir.**

### *Tibb müəssisələrində*

əməliyyat olunan ur (zob) xəstələr şöbədə konsultasiyadan keçirilir. Belə xəstələrin həkim-endokrinoloq tərəfindən konsultasiyası lüzumsuz strumektamiya əməliyyatlarının sayının xeyli azalmasına kömək edib.

Stasionar müalicə alan bütün xəstələrdə laborator, rentgenoloji, USM, EKQ, müayinələri həyata keçirilib. Xəstələr okulist, nervpatoloq, cərrah, kardioloq, ehtiyac olduqda digər ixtisas həkimlər tərəfindən konsultasiya edilib.

Həkim-laborant İradə Eyvazova kabinədə qanda şəkərin kliniki müayinələrini aparır, qlükozalaşmış hemoqlobilinin, qanın laxtalanma müddətini təyin edir.

Endokrinologiya şöbəsi tərəfindən şəkərli diabetin diaqnostikası və müalicəsi üzrə klinik protokolların tətbiqi, xəstəliyin profilaktikasına dair maarifləndirici söhbətlərin aparılması, diabetin fəsadlarının profilaktikası məqsədilə tibb müəssisələrində tibb məktəbləri şəbəkəsinin gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi də diqqət mərkəzindədir. Bu məqsədlə artıq on ilə yaxındır ki, diabet məktəbinin təlim, məşğələ və treninqləri təşkil olunur.

Diabet məktəbi proqramına əsasən şənbə günləri şəkər xəstələrinə özünə nəzarət qaydaları üzrə təlim dərsləri keçirilir.Təlimlərdə şəkərli diabet xəstəliyinin müalicə və profilaktikasına aid çoxsaylı plakatlardan, bukletlərdən əyani vasitə kimi istifadə edilir. Qazanılan nəticələrin əhəmiyyəti nəzərə alınaraq artıq rayonlarda da maarifləndirici təlim dərsləri fəaliyyəti başlayıb. Şöbədə Bakı şəhərindən şöbəyə gələn həkim-endokrinoloq Rövşən Həsənovla da görüşdük. O, vaxtaşırı olaraq Naxçıvana ezam olunaraq endokrinoloji xəstələrin konsultasiyasında iştirak edir, xüsusən də punksiyaya ehtiyacı olan ur xəstələrin müayinəsini həyata keçirir. Bu müayinələr artıq yerli həkimlər tərəfindən də icra olunur.

Həkim və orta tibb işçilərinin nəzəri bilik və bacarıqlarının yüksəldilməsində Bakı şəhərindən dəvət olunan həkimlərin iştirakı ilə endokrinologiyanın aktual problemlərinə həsr olunmuş konfranslar mühüm rol oynayır.



**Həkim-endokrinoloq Aysel Dünyamalıyeva 2006-cı ildə müalicə işi üzrə ali təhsil və internaturanı başa vurandan sonra bu səhiyyə müəssisəsində əmək fəaliyyətinə başlayıb. 2016-cı ildən şöbəyə rəhbərlik edir. 13 illik həkimlik fəaliyyəti ona kifayət qədər təcrübə qazandırsa da, daim endokrinologiya elmində baş verən yeni müayinə və müalicə üsullarını öyrənir və tətbiq edir. Nəticədə onun rəhbərlik etdiyi şöbədə cari ilin ötən dövründə xəstələrin hamısı yaxşılaşma ilə evə yazlıb.**

### *Son illər*

dünyada xəstələrin sayında baş verən artımın Naxçıvanda da müşahidə olunduğunu bildirən şöbə müdiri bu artımın daha çox aparılan kütləvi müayinələrin əhatə dairəsinin genişlənməsi, vaxtında diaqnozun qoyulması ilə izah etdi. Dedi ki, bu xəstəliyin əmələ gəlməsinin birinci səbəbi - stresdir. Müasir insan çox qaçaqaçdadır. Hər gün stres yaşayır. 40 yaşdan sonrakı II tip diabetlər əksər hallarda genetik və piylənmə səbəbindən olur.

### *Şöbə müdiri*

**son illər tez-tez eşitdiyimiz "diabet xəstəlik deyil, həyat tərzidir"-sözlərini də xatırlatdı. Dedi ki, insan müəyyən qaydalara əməl etdikdə, xəstəliyin onun həyatına olan mənfi təsirini minimuma çatdıra bilər. Mən artıq 13 ildir ki, diabet xəstələri ilə işləyirəm. Xəstələrimə hər zaman deyirəm: diabet diaqnozu olan bir insan üçün ən vacib şey düzgün qidalanmaqdır. İnsan öz yeməyinə, içkisinə, yuxusuna, eləcə də ümumi həyat tərzinə daim nəzarət etməlidir. Mən bunun nə qədər çətin olduğunu bilirəm, amma bunu etmək çox vacibdir. Diabet göz, beyin, ürək, ayaq, böyrək və qaraciyərə mənfi təsir göstərir. Mən həmişə xəstələrimə pəhriz saxlamamağın və həkim tövsiyyələrinə əsasən vaxtında dərman qəbul etməməyin nə qədər təhlükəli olduğunu açıq şəkildə izah edirəm. İnsulindən qorxmaq lazım deyil. Onun yanlış miqdarda qəbul edilməsi isə təhlükəlidir.**

Diabetli uşaqlar isə çox ağır bir mövzudur. Validyenlər uşaqlarının endokrinoloji sistemini bilərəkdən, ya savadsızlıqdan, bilməyərəkdən pozur. Uşaq ki, piyləndi, çox kökəldi, deməli, inkişafında hormonal problemlər baş qaldıracaq, ya da gələcəkdə diabeti olacaq.

Aysel həkim onu da vurğuladı ki, muxtar respublika bir sıra endokrin xəstəliklərin yayılması baxımından endemik yer hesab edilir. Hazırda dispanser qeydiyyatda duran şəkərli diabet xəstələrin sayı 10.240 nəfərdir. Onlardan 10.048 nəfəri II tip, 193 nəfəri I tip şəkər xəstəliyinin daşıyıcısıdır. I tip xəstələrdən 78 nəfəri 18 yaşadək uşaq əhalisidir. Dövlət Proqramına uyğun olaraq muxtar respublikada görülmüş tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təmin olunması xeyli yaxşılaşıb. 2007-ci ildə verilmiş qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri yeniləri ilə əvəz olunub. Bu aparatlar Naxçıvan Muxtar Respublika Xəstəxanasının Endokrinologiya şöbəsində qeydiyyatda duran hər bir xəstənin özünə ödənişsiz olaraq təqdim edilir. Eyni zamanda aparatla qanda şəkərin miqdarının təyin edilməsi qaydaları izah olunur. Təkcə cari ilin ötən dövründə Naxçıvan şəhərində yaşayan diabet xəstələrinə 371 qlükometr və 3 min 298 test çubuğu paylanılıb.

Bununla yanaşı, digər tədbirlər də görülür. Muxtar Respublika Səhiyyə Nazirliyinin bu il noyabr ayında keçirilən kollegiya iclasında əhaliyə göstərilən endokrinoloji xidmətin vəziyyəti müzakirə olunub və müvafiq qərar qəbul edilib.Əhaliyə göstərilən ambulator və stasionar endokrinoloji tibbi xidmət daha da yaxşılaşdırılması, xəstələrin aşkar edilməsi, müayinə, müalicə və dispanserizasiya tədbirlərinin təlimata uyğun aparılsı zəruri hesab edilib.

### *Şəkərli diabet xəstələrin*

müntəzəm olaraq oftalmoloq, kardioloq, uroloq, cərrah və digər ixtisas həkimlər tərəfindən konsultasiyasına, şəkərli diabet xəstələrində fəsadların qarşısının alınması üçün bütün xəstələrin müayinə və müalicə tədbirləri kliniki protokllara uyğun həyata keçirilməsinə göstəriş verilib. Yarana biləcək fəsadların qarşısının alınması üçün şəkərli diabet xəstələrində müalicə tədbirlərinin glükozalaşmış hemoqlobilin müayinəsinin nəticəsi əsasında qurulması, əhali arasında xəstəliklər barədə səhiyyə-maarifi tədbirlərinin icrasına diqqətin və nəzarətin daha da gücləndirilməsi və digər məsələlər qərarda öz əksini tapıb. Hazırda bu qərarlar şöbə tərəfindən icraya götürülüb. Əsas diqqət xəstələrlə maarifləndirici tədbirlərin təşkilinə yönəlib. Həmin tədbirlərin birində tanış olduğum Sabir Axundov bildirdi ki, xəstəni sağaldan onun inamıdır. İnam olduğu təqdirdə, xəstəlik tez müalicə olunur. Bəzən yerli həkimlərə inamı olmayan xəstələr səhhəti ilə bağlı xarici ölkələrə üz tuturlar. Tanıdığım xəstələr var ki, orada yüksək dozalı dərman veriblər, bir müddət özlərini yaxşı hiss edir, sonra əvvəl-axır bura qayıdırlar. Müalicəni başqa yerdə axtarmaq təkcə maddi baxımdan deyil, həm də mənəvi tərəfdən müalicə prosesini uzadır və bir çox hallarda mənfi təsirini göstərir. Mənim və doğmalarımın da səhhətində problemlər olur. Amma öz xəstəxanalamıza, öz həkimlərimizə müraciət edirəm. Nə İran, nə Rusiya, nə də Türkiyə... Endokrinoloqumuz da var, kardioloqumuz da, cərrahımız da... Niyə gedib qonşuda axtarım? Yaxşı kadrlarımız, yaxşı həkimlərimiz var.

**İnşaatçı Etibar Hüseynov dövlətin vətəndaşlarına göstərdiyi bu qayğının şəkərli diabetdən əziyyət çəkən vətəndaşlar və onların doğmaları tərəfindən böyük rəğbətlə qarşılandığını bildirərək, minnətdarlığını ifadə etdi. O dedi ki, ata-anasında bu xəstəlik aşkarlandığı zaman bir xeyli narahatlığımıza səbəb oldu. Xüsusi ilə mütəmadi olaraq müayinə olunmaq, pereparatlardan istifadə etmək qayğılarımızı artırırdı. Ancaq dövlətin şəkərli diabetdən əziyyət çəkən vətəndaşlarının müalicəsini üzərinə götürməsi qayğılarımızı bir xeyli azaldıb. İstifadə etdiyimiz dərmanın qiyməti 12-13 manatdır. İki nəfər üçün aldığımızı nəzərə alsaq, ay ərzində ən azından 20-30 manat pul edir ki, dərmanları pulsuz aldığımız üçün həmin pulu qidalanmaya xərcləyirik. Bundan əlavə, xəstəliyin səviyyəsini yoxlamaq üçün pulsuz aparat da verildiyi üçün əlavə xərcdən də xilas olmuşuq.**

Hər ayın son həftəsi dispanser qeydiyyatında duran xəstələr bu ünvana daha çox üz tutur. Çünki həftə ərzində zəruri olanlara resept yazılmalı, təyin olunmuş dərmanları almaq üçün müvafiq əczaxanaya getməlidirlər. Canı ağrıdığından bəzən əsəbi davrananlar da olur. Aysel həkim bunu təbii qəbul edir. Onun qənaətinə görə bu sənəti seçən unutmamalıdır ki, xəstə zədələnmiş, həssas psixologiyalı insandır. Bəzən sevgi qarşılığında pasiyentlərlə problemlər də olur. Bu da bir taledir, yaşayasan gərək. Həkimlik elə bir peşədir ki, hər pasiyentlə gərək onun başa düşəcəyi dildə münasibət qurasan.

**Bu şöbədə çalışan həkimlərin, tibb bacılarının peşəkar fəaliyyəti, gülər üzü, xoş rəftarı, onları anlamaq bacarığı xəstələri inandırır ki, ağxalatlı peşə sahibləri onların sağlamlığının keşiyindədir, inanırlar ki, ulu Tanrıdan verilən ömür payı etibarlı əllərdədir.**

**Hüseyn Əsgərov,**
**Naxçıvan**